## 22 fevral Avtomobil Yol İşçilərinin Peşə Bayramı Günüdür



Yol həm mədəniyyətdir,
həm rahatlıqdır, həm müasirlikdir,
həm də ölkənin səviyyəsini göstərir



# Azərbaycanın avtomobil yolları gündən-günə müasirləşir

### *"The World Economic Forum" Beynəlxalq Təşkilatının reytinqinə əsasən Azərbaycan 2017-ci ildə MDB məkanında ən yaxşı yolları olan ölkə seçilib*





Bu il avtomobil yol inşaatçılarının peşə bayramı günü ölkəmizdə prezident seçkiləri ərəfəsinə təsadüf etdiyi üçün daha əlamətdardır. Məhz buna görə də builki peşə bayramımızı daha böyük ruh yüksəkliyi və nailiyyətlərlə qeyd edirik. Bu bayram günündə bizim sevinməyə və qürur hissi keçirməyə haqqımız çoxdur. Çünki regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsində və ölkədə avtomobil yolları şəbəkəsində infrastrukturun təzələnməsində var qüvvəmizlə çalışırıq. Eyni zamanda, Azərbaycanın yol infrastrukturunun beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi və ölkədə tranzit potensialının artırılmasını həyata keçirmək başlıca məqsədimizdir.

Dövlət başçısının dörd ay əvvəl imzaladığı fərmanla "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti yenidən təşkil edilərək Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi yaradılmışdır. 19 dekabr 2017-ci il tarixdə isə ölkə rəhbərinin imzaladığı "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmanla agentliyin nizamnaməsi və strukturu təşkil edilmişdir. Azərbaycanın yol təsərrüfatı işçilərinin əməyinə verdiyi bu yüksək qiymətə və etimada görə dövlət başçısına kollektivimiz adından dərin minnətdarlığımı bildirirəm.

Ötən ilin yanvar ayında Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı iqtisadiyyatın bütün sahələri ilə yanaşı, respublikanın və paytaxt Bakı şəhərinin yollarında yerinə yetirilən işlərdən danışarkən iki məsələni xüsusilə vurğulamış və kollektimiz qarşısında konkret vəzifələr qoymuşdu: Birincisi, 2017-ci ildə 40 kənd və qəsəbələrarası avtomobil yolları layihəsinin həyata keçirilməsi, İkincisi, Bakı şəhərində keçmiş "Sovetski" kimi tanınan (Azərbaycan Dövlət Milli Dram Teatrının arxası) ərazidə təsdiq olunmuş layihənin 2017-ci ildə tam icra edilməsi. Bu gün iftixar hissi ilə bildirirəm ki, hər iki dövlət tapşırığı uğurla yerinə yetirilmişdir. Belə ki, 2017-ci ildə agentliyimiz tərəfindən nəzərdə tutulan 40 kənd və qəsəbələrarası layihəyə qarşı 52 kəndlərarası və Bakı şəhəri qəsəbələrarası avtomobil yolları layihəsi uğurla başa çatdırılmışdır.

"Sovetski"də birinci mərhələdə 40 hektar ərazi boşaldılmışdır. 6 hektar ərazidə 7,1 kilometr uzunluğunda asfalt-beton örtüyünün sahəsi 87,6 min kvadratmetr təşkil edən Nəriman Nərimanov, Abdulla Şaiq, Balababa Məcidov, Mirzəağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması başa çatdırılmışdır. Həmin vaxtlar keçirilmiş açılış mərasimlərində ölkə rəhbəri iştirak etmişdir. İkinci mərhələdə isə yol qovşaqlarının tikintisi işləri layihəyə uyğun olaraq yekunlaşdırılmış və 14 avqustda dövlət başçısının iştirakı ilə ikinci mərhələnin təntənəli açılışı olmuşdur. Biz, avtomobil yol işçiləri ölkə rəhbərinin iştirakından bu gün də qürur duyur, tapşırıq və tövsiyələrini əsl fəaliyyət proqramı kimi qəbul edirik.

Avtomobil yol inşaatçılarımız ümumilikdə 2017-ci ildə dövlət başçısının imzaladığı sərəncamlara uyğun olaraq, respublikanın 34 rayonunda 14 respublika əhəmiyyətli, 42 kəndlərarası avtomobil yolları layihələrini uğurla yekunlaşdırmışdılar. Bakı şəhərinin 10 qəsəbələrarası avtomobil yolu layihəsi, 1 körpü və yeraltı piyada keçidinin tikintisi layihəsi üzrə inşaat və yenidənqurma işləri başa çatdırılmışdır. Bu mühüm layihələrin həyata keçirilməsi 2,1 milyon nəfər əhalinin yaşadığı 651 yaşayış məntəqəsini əhatə edir. Artıq 1341,1 kilometr uzunluğunda rahat avtomobil yolları əhalinin istifadəsinə verilmişdir. Onlar tədarük etdikləri kənd təsərrüfatı məhsullarını (pambıq, barama, tütün və s.) və meyvə-tərəvəzi qısa vaxt ərzində, rahat şəkildə istədikləri ünvana çatdıra biləcəklər. Fəxrlə bildirirəm ki, dövlət başçısı ümumilikdə 2017-ci ildə tikintisi başa çatmış layihələr də daxil olmaqla 36 dəfə avtomobil yolu və yol qurğularının açılışı, təməlqoyma və tanışlıq mərasimlərində iştirak etmiş, öz dəyərli tapşırıq və tövsiyələrini vermişdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi tərəfindən 2017-ci ildə uzunluğu 1341,1 kilometr olan ümumi istifadədə olan avtomobil yolları, Bakı şəhəri və qəsəbələrarası avtomobil yolları, prospekt və küçələr tikilmiş, yenidən qurulmuş və təmir edilmişdir. Bu da 2016-cı illə müqayisədə 461,1 kilometr çoxdur. O cümlədən, respublika əhəmiyyətli 319,4 kilometr, yerli əhəmiyyətli 888,7 kilometr və Bakı şəhəri yolları 133 kilometrdir. Fərəh hissi ilə deyə bilərəm ki, son iki il ərzində yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları çərçivəsində aparılan islahatlar ürək açır. Həmin islahatlar nəticəsində bu gün birinci texniki dərəcəli avtomobil yolları 785,9 kilometr təşkil edir. Bu rəqəm 2015-ci ildə 461 kilometr idi. Son bir ildə ölkədə ümumi istifadədə olan avtomobil yollarında 14 yeni avtomobil körpüsü tikilmiş, 8 körpü təmir edilmişdir. Avtomobil yollarında 13 piyada keçidi tikilərək istismara verilmişdir. Onlardan 10-u M-4 Bakı-Şamaxı-Yevlax avtomobil yolunda, 2-si M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda, 1-i isə Zaqatala şəhərində istifadəyə verilmişdir. Ən yaddaqalan hadisə isə ötən il iyun ayının 14-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən, uzunluğu 9 kilometr olan yeni avtomobil yolunun açılışı oldu. Sanki işğal altında olan Qarabağa böyük qayıdış başlayırdı...

Ölkə rəhbərinin uğurlu siyasəti nəticəsində həm də idman ölkəsi kimi tanınan respublikamızda ötən il IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" Qran-prisi kimi beynəlxalq idman yarışları uğurla keçirilmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Oyunların Təşkilat Komitəsi tərəfindən verilmiş tapşrıqlara uyğun olaraq kollektivimiz tərəfindən idman arenalarına və qeyri-yarış obyektlərinə gedən yollarda 45,8 min kvadratmetr sahədə təmir və tikinti işləri aparılmışdır. Həmin yollar boyu 230 ədəd yol nişanı və məlumatverici lövhələr quraşdırılmış, İslam Həmrəyliyi Oyunlarının 562 ədəd loqosu asfalt-beton üzərinə çəkilmiş, 178,1 min kvadratmetr sahədə boya ilə xətlənmə işləri yüksək keyfiyyətlə yerinə yetirilmişdir. 400 ədəd su baryerləri və 206 ədəd hər biri 3 metr uzunluğunda olan dəmir-beton mühafizə səddi düzülərək avtobusların marşrutlar üzrə nizamlı hərəkəti təmin edilmişdir.

Bu peşə bayramı günündə qeyd edirəm ki, Bakı şəhərində ümumi uzunluğu 133 kilometr olan şəhər yolları yenidən qurulmuş və təmir olunmuşdur. Binəqədi rayonu ərazisindəki Azadlıq prospektinin və Binəqədi şosesinin yendiən qurulması, Süleyman Sani Axundov, Cəfər Xandan, Şövkət Ələkbərova, İbrahim paşa Dadaşov küçələrinin, Novxanı-Pirşağı avtomobil yolunun tikintisi, Yasamal rayonunda keçmiş "Sovetski" adlanan ərazidə yeni avtomobil yollarının tikintisi, Nəsimi rayonundakı Yusif Səfərov küçəsi ilə Kövkəb Səfərəliyeva küçəsini birləşdirən yeni yolun tikintisi, Xətai rayonunda Yusif Səfərov küçəsi ilə Fəzail Bayramov küçəsini birləşdirən yeni yolun, Süleyman Vəzirov, Araz İsmayılov və Babək prospektinin bir hissəsinin, Segey Senyuşkin küçəsinin, Nərimanov rayonunda Nəcəf Nərimanov və İsmayıl Hidayətzadə küçələrinin yenidən qurulması, Səbail rayonunda Səbail prospektində iki dəmir yol xəttinin ləğv edilməsi ilə əlaqədar olaraq bu hissənin təmiri, Pirallahı rayonunda Səməd Vurğun küçəsinin yenidən qurulması, yeni tikilmiş Pirallahı körpüsünün giriş və çıxış yollarının tikintisi, Xəzər rayonunun Şüvəlan qəsəbəsində Lev Starçuk və s. küçələrin təmiri insanlara rahatlıq gətirmişdir. Bundan əlavə, Bakı şəhərinin bütün inzabi rayonları ərazisində avtomobil yollarında, prospekt və küçələrdə 158,4 min kvadratmetr sahədə cari təmir işləri yerinə yetirilmişdir.

Ötən il Bakı şəhərində Pirallahı qəsəbəsini sahillə birləşdirən 422 metr uzunluğunda körpü tikilərək istismara verilmiş, Binəqədi-Novxanı-Corat avtomobil yolunda dəmir yol xətti və kanal üzərində yerləşən iki körpü yenidən qurulmuş, Hüseyn Cavid parkı ərazisində və Ağ şəhər də olmaqla iki yeni piyada keçidi tikilmişdir. 2017-ci ildə dövlət başçısının imzaladığı 33 sərəncama əsasən, respublikamızın 31 rayon və şəhərində 655,7 min nəfər əhalinin yaşadığı 395 yaşayış məntəqəsini birləşdirən uzunluğu 863,2 kilometr olan 42 kəndlərarası avtomobil yolunun, Şəki şəhərində 1 körpünün bərpası və Zaqatalada 1 piyada keçidinin tikintisi və təmir işləri başa çatdırılmışdır.

Bakı şəhərində isə 736,8 min nəfər əhalinin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirən, uzunluğu 98 kilometr olan 10 qəsəbələrarası avtomobil yolunun tikintisi və yenidənqurulması uğurla yekunlaşdırılmışdır.

Agentliyimizin kollektivi həmçinin daxili investisiya hesabına həyata keçirilən layihələrin icrası məqsədilə öz fəaliyyətini günbəgün yaxşılaşdırır. Hacıqabul-Bəhrəmtəpə-Mincivan avtomobil yolunun 64 kilometrlik hissəsinin yenidən qurulması, Ağ şəhər layihəsinin davamı, Bakı şəhərinin Yasamal rayonunda Füzuli meydanının və Təzəpir məscidi kompleksinin ətrafındakı yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, Ziya Bünyadov prospekti ilə Balaxnı-Binəqədi şosesini birləşdirən 8 hərəkət zolaqlı avtomobil yolunun tikintisi, Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Yuxarı Tala kəndi ərazisindən keçən hissəsinin yenidən qurulması, Zaqatala şəhəri ərazisindəki yeraltı piyada keçidi tikintisinin başa çatdırılması, Biləsuvar rayonu ərazisində 18 min nəfər cəbrayıllı məcburi köçkünün məskunlaşdığı 11 yaşayış məntəqəsini birləşdirən 1-11-ci qəsəbələrarası avtomobil yolunun əsaslı təmiri, Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin davam etdirilməsi, Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun, Dəmirçi-Lahız avtomobil yolunun tikintisi, R-16 Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin bərpası, Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhədi avtomobil yolunun yenidən qurulması, Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmiri həmin layihələr sırasındadır.

Avtomobil yol inşaatçılarımız nəqliyyatın hərəkətinin təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirlərə də davamlı olaraq geniş yer verir. Əlbəttə, əsas öhdəliklərimizdən biri hərəkət iştirakçılarının fasiləsiz və təhlükəsiz hərəkətini təmin etməkdir. Ötən il ərzində Bakı şəhərində və respublikanın avtomobil yollarında 3355 ədəd yol nişanı, 1085 ədəd məlumatverici lövhə, 10948 ədəd siqnal dirəyi, 1140 ədəd siqnal bayrağı, 14860 perimetr əyrixətli tirlər quraşdırılmış və bərpa edilmiş, 774,2 min kvadratmetr həcmində yolların boya ilə xətlənməsi işləri başa çatdırılmışdır.

Görülən tədbirlərə baxmayaraq, 2017-ci ildə respublikanın və Bakı şəhərinin avtomobil yollarında 396 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 6538 perimetr əyrixətli tirlər, 18 ədəd işıq dirəyi, 13 ədəd yol nişanı yararsız hala düşmüş, ümumilikdə ölkənin yol təsərrüfatına 521,2 min manat məbləğində maddi ziyan dəymişdir. Bundan 328,1 min manatı ödənilmişdir. Cari ildə qarşıda duran vəzifələrimiz daha çoxdur.

Dövlət başçısının sədrliyi ilə 10 yanvar 2018-ci ildə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə rəhbəri iqtisadiyyatın bütün sahələri ilə yanaşı, respublikanın avtomobil yollarında yerinə yetirilən işlərdən də danışmış, 500 yaşayış məntəqəsini əhatə edən 1300 kilometr uzunluğunda yol salındığını və bunun da çox böyük göstərici olduğunu xüsusilə vurğulamışdır. 2018-ci ildə isə kollektivimiz qarşısında ən azı, 600 kəndi əhatə edəcək 2 min kilometrdən çox avtomobil yolu çəkilməsi kimi böyük bir vəzifə müəyyənləşdirilmişdir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi 2018-ci ildə Bakı şəhərində uzunluğu 106,4 kilometr olan 11 layihənin, uzunluğu 1274,1 kilometr olan 52 kəndlərarası layihənin, habelə respublika əhəmiyyətli avtomobil yollarının və xarici kredit vəsaiti hesabına yerinə yetiriləcək layihələrin icrasını həyata keçirəcək. Bununla yanaşı, il ərzində Olimpiya stadionu ərazisində inşa olunan tunelin, müxtəlif dizaynda 5 piyada keçidinin tikintisi, Ağ şəhər layihəsi, Ziya Bünyadov prosperkti ilə Balaxanı-Binəqədi şosesini birləşdirən yeni yolun tikintisi, Şamaxı-Padar yolunun davamı olaraq Padar-Sabirabad yolunun tikintisi, Rusiya Federasiyası ilə sərhəddə Samur çayı üzərində yeni körpünün tikintisi, Sumqayıt şəhərində iki prospekt və iki küçənin yenidən qurulması, Qanlı göl ərazisində tikilən MİDA-Şərifzadə yolu və s. plana salınmışdır. İlkin olaraq deyə bilərəm ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2018-ci ildə ümumi uzunluğu ən azı, 2171 kilometr olan avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri layihəsi həyata keçiriləcəkdir.. Artıq icra qrafiki təsdiq edilmişdir. Bununla yanaşı, dövlət başçısının müvafiq sərəncamına əsasən, nəqliyyat dəhlizinin tərkib hissəsi olan M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun M.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikintisinə qərar verilmişdir. Ümumi uzunluğu 243 kilometr təşkil edən Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolu tam olaraq cari ildə istifadəyə veriləcəkdir.

Əlverişli coğrafi mövqeyi ilə seçilən Azərbaycan bu gün mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevrilmişdir. Əlbəttə, bu, bütün kollektivimizi daha yüksək səviyyədə çalışmağa ruhlandırır.

Dövlət başçısının sərəncam və tapşırıqlarını rəhbər tutaraq ölkəmizin avtomoil yollarını başdan-başa abadlaşdıracaq, yol infrastrukturunu tamamilə təzələyəcək, daha yeni müasir yolların salınmasına diqqəti artıracağıq. Bir sözlə, insanlara rahatlıq və təhlükəsizlik bəxş edəcək, iqtisadiyyatımıza yeni-yeni töhfələr verəcəyik.

***Saleh MƏMMƏDOV,***
***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri***





